YUSİF ƏLİZADƏ

Beş kəşfiyyatçı əsgər

YUSİF ƏLİZADƏ

BEŞ KƏŞFİYYATÇI ƏSGƏR

Poema

“Elm v [illegible]”
Bakı – 2014

OĞLUM KƏNANIN ƏZİZ XATİRƏSİNƏ

Redaktor **Tapdıq Əlibəyli**
Azərbaycan Yazıçılar Birliyinin üzvü,
şair, publisist

Yusif lizad [illegible] yazıcı [illegible]
Bakı "Elm v[illegible], 68 [illegible]

[illegible] lizad[illegible] [illegible]nda yaz[illegible] be[illegible] yazıçı sg[illegible]oe[illegible]sında Qa[illegible]ba[illegible]z[illegible]ğrc[illegible] li[illegible]l n[illegible]fə[illegible]nda müst qəliyimi b[illegible]q[illegible]ə əmr[illegible]av[illegible]n[illegible]yi hü-tövs[illegible]ünün nor[illegible]ması[illegible]nda bir qr[illegible]p k[illegible]yv[illegible]l sg[illegible]igidlik [illegible]a[illegible]t[illegible] olur.

[illegible]s[illegible]nis[illegible]ole[illegible]m q[illegible]mlara varılmı[illegible]la obrazlar v[illegible]ü[illegible] lifin dil[illegible]q[illegible]olur. Kitab geni[illegible]oxucu auditoriyası üçün n[illegible]z[illegible]utulmu[illegible]ur.

Müəllifin yaxud varisinin icazəsi olmadan əsərin təkrar nəşri və əsasında film çəkilişi qəti qadağandır.

4702000000
*N*098 – 2014 qrifli nəşr

© « Yusif lizad[illegible]2014
© «Elm və təhsil», 2014

BEŞ KƏŞFİYYATÇI ƏSĞƏR

Bu günü arzular hər ata-ana:
Torpağı qorumaq Vətən borcdudur.
İgid bir əsgər ol doğma yurduna,
Ulu babalardan vəsiyyət budur:
Torpaq müqəddəsdir, keşiyində dur!

Cahan savaşında atan vuruşub,
Sənինsə hərb yolun Qarabağdandır.
Bəd, mənfur qonşular azıb-qudurub,–…
Neçə yurd yerimiz tapdağındadır…

- Qucaqlaşaq, oğul, getmək vaxtıdır…
Yağıya dərs olsun qoy döyüş yolun.
İnşallah qələbə…o gün yaxındır!
Sındır düşmənlərin qanadın-qolun!
Qoru şərəfini Odlar yurdunun!

Durmuşdu oğulla üzbəüz ata,
Həyəcan sarmışdı onu büsbütün.

Komandir uzaqdan səsləndi: - Ata!..
Bu vida onunçün çətindən-çətin.

Çağırıb kapitan verir tapşırıq:
- Sənə açıqlayım təfsilatilə,
İşimdə alınıb bir səhlənkarlıq,
Sənədir ümidim, səbirlə dinlə…

Deyərək, kapitan Kənanla birgə,
Yön aldılar daha, üç silahlıya.
Fərəqət durdular, onlar bir cərgə.
Məsələ bəlliydi burda hamıya.
- Qataq yuxusuna düşmənin haram,
Qoymayaq onları nəfəs dərməyə.
O vəhşi xislətlər edilməli ram,
Məcbur etməliyik boyun əyməyə.
Üç nəfər gözləsin indi bayırda,
Uğur diləyirəm, sizə o tayda!
Diqqətlə keçməli Tərtər çayını,
Düzgün seçilməli suyun axını.

Gərək qarşı tərəf tutmasın xəbər,
Hiyləgər düşmənlər qurarlar tələ.
Nə qədər imkan var verilsin zərər,
Birisi sağ ikən keçməli ələ.

Bu yolda Tanrımız sizlərə yardı…
Gözündən qaçmadı, əsgərin üzü...
Bir anlıq nədənsə susdu, dayandı.
Daha gülümsəmir, var məxfi sözü:

- Sizə qoşulacaq yolda bir əsgər,
Adı Ədalətdir, köməyi dəyər.
Zəhmətiniz hədər getməsin, Kənan,
Bir bıçaq göstərir kapitan bu an:
Hə, onda da bax bu, bıçaq olacaq,
Doğurdan o oğlan qoçaqdır-qoçaq.
Mənə inanan tək, sən inan ona!
Çətin məqamlarda çatar hayına.
Sizi düşmən üstə, göndərirəm mən.
Yaman məkrlidir bil ki, bu düşmən.
Orda, kəşfiyyatda, apar «kəşfiyyat».
Gör nə qəribədir doğrudan həyat,
Kimin, kim olduğun bilmək istəsən
Sınadığın zaman sən biləcəksən.
Yoxuşda, qayada, haldan düşüncə,
İrəli getməkdir – bircə düşüncə
Qidalan əzabdan, yolu gedincə.
Zəfərsə qərq edər sizi sevincə.
Bir də istəyirəm biləsən, Kənan!..
Seçimdə deyəsən aldandım yaman...

Şübhələr içimi oyur doğrudan,
Bu şübhə doğuldu görəsən hardan?..
Sanki, tapşırıram, quzunu qurda.
Qənim kəsilirlər beləsi yurda
Dalağım da sancdı, gördüm uzaqdan.
Tanıyıram onu bilmirəm hardan,
O, göygöz oğlanı, yoxla sınaqda.
İndi danışanda, onlarla burda.
Üzündə əlamət yox idi qandan…
Bir yoxla, köynək də geysə Qurandan!

Yığışıb komada, yandırsaz ocaq,
Nə azuqən varsa, gətir ortaya.
Odun lazım olsa, gətir beş qucaq,
Gör insan ayağı dəyib oraya?..

Komandir şəkili çıxarır cibdən,
Qərarı tükənir onun qeyzindən:

- Yaxşı-yaxşı baxıb, götür özünlə,
Sonra təhqiq eylə sərraf gözünlə.
Qarikdir – o gülür, Urşan solunda.
Təxribatçı Qarik, bir qrupu da var…
Elə yerə vur ki, daxil olanda,
Mütləq girəcəyə baxsın o divar.

Komandir büsbütün fikir içində,
Gedirdi cığırla hamıdan qabaq.
Fikri yol boyunca ölçü-biçimdə
Düşünür: - «Doğrudan bizdə var «calaq?!»
Ayaq saxlayaraq bir anlıq Kənan,
Üzünü hökmlə tutdu dostlara:
- Burda ikiniz də çıxmayın yoldan.
Əliyarla baxaq başqa cığıra…
Bitirər-bitirməz o kəlməsini,
Əliyarla birgə aralandılar.
Çiynində rahlayıb yol heybəsini,
Yaxın gölməçədən bir atlandılar…

Gözləri zilləndi zirvədə qara,
Yamacda sandılar xalı çəməni
Heyran qalmışdılar bu cəmənzara.
Urşan boğazında açdı düyməni:

- Bir siqaret çəkək baxaq dadına,
Çıxart alışqanı, yanaq oduna!

Çıxartdı siqaret, damağa qoydu.
Elə ki, sümürüb tüstünü uddu,
Nəfəsin dərmədi, çönüb oturdu.

- Deyəsən tüstünü çox uddun bir az?
- Qorxma, pis adama, heç bir şey olmaz.
Uzatdı Vəkilə siqareti o;
- Al çək! Bilirəm ki, sən də çəkənsən.
- De, axı nəyimə, xeyirlidir o?
Çəkmirəm, çəkmərəm, sən də istəsən…

Səhərdir, buludlar «köç edir» dağdan,
Cavab gözləyirdi Kənan dostundan.
Kol-kosun içində məxfi söhbətlə,
İrəli gedirlər onlar hünərlə.

- Birdən mən yuxarı çıxana qədər,
Çalışar fürsəti verməsin hədər?..
- Ağacın dibindən, yuxarı atmaz,
Daldalan ağacda, xətası olmaz.

Rəqib gülləsinə oxşasın deyə,
Tələsər o zaman düşmənə tərəf,
Həm də durbin ilə baxsan yüksəyə,
Şübhə də eləməz, açılmaz kələf.
Bir məsəl də vardır, demiş atalar,

Ölünü öz xoşna, azad qoysalar,
Bilirsən nə edər? Kəfəni cırar...
Həm də mən yaxında onu pusacam.
Yadda saxla, bizə qorxu yaraşmaz,
Nə qədər sizinlə burda mən varam,
Əl qaldıra bilməz, satqın-yaramaz!

- Bəlkə də o sanır bizi «nəleyin»
Kapitan orda: «Siz çöldə gözləyin!»
Bu da: «Burda qalın, yoldan çıxmayın!»…
Özün de, belə də «kəşfiyyat» olar?
Elə olanda da, belə qurtarar…
- Yolun planını Əlyarla qurur,
- Əlyarın sözüylə oturub-durur.

Urşanın hər sözü çılğın, dolaşıq…
Deyəsən bezmişdi yoldaşı artıq:

- Xoşuma gəlmədi, bərk danışığın.
Burda qulağı var, hər kolun, daşın.
Kapitandan alıb məxfi tapşırıq.

Bir də ki, nə olub, itib-batırıq?
- Mən sənin xoşunla danışmalıyam?
Yoxsa, böyük sənsən, mən susmalıyam?
Deyirəm ki, onlar təslim olublar!
- Tapdım! Onlar qatıq, süd axtarırlar.
- Bəlkə, sən özünü tez yetirəsən?
Girib bir tərəfdən, inək əmərsən.
Fərasətin olar, milçək qovarsan.
Ya da kömək üçün, buynuz tutarsan?..

Urşan istehzalı, durub oturdu.
Vəkil od içində, hey vurnuxurdu:

- Fikrimcə, sən məni tənbeh edirsən,
Nəsihət atamla, evdə qurtardı.
Nə bilim… assaydım qulaq sənə mən,
Dediyin buynuz da burda olardı.
Sənin o dilin də dinc oturardı…

Vəkil yoldaşına baxaraq durdu.
Hirsindən elə bil ildırım vurdu.
Dişlərin qıcıyıb Vəkilə tərəf,
Elədi yoldaşın yumruğa hədəf.
Yapışaraq onlar biri-birindən,
Sanki od yağırdı bəbəklərindən.

Yıxıldı gölməçə yanına onlar.
Bəlkə veriləcək indi son qərar.
Gah biri o birin, qolun dişləyir,
Gah da suya salıb boğmaq istəyir.

Qalxaraq qoltuqdan, tapança qapdı,
Vəkilə tuşlayıb, çaxmağı dartdı:

- İndi, kimin dili, de dinc oturur?!
- Xəbis-xainlərlə heç aram yoxdur…
Burax o silahı, yalın döyüşək.
Öləndə də barı kişi tək ölək.
Bilirəm bu sözlər xoşuna gəlmir,
Razı olmağını ağlım da kəsmir.
Ya da icazə ver, silah götürüm,
Əlavə heç nəyə qalmır ümidim.
- Hə, səndə avtomat, məndə tapança…
Yaxşıca qurmusan bu yol boyunca.
- «Makarov»um da var, istəsən məndə,
Qalmarıq silahdan bil ki, dəməndə.

Bu ara yaxından şırıltı gəldi,
Sinirlər daha da tarım gərildi.

Günəşin işığı bir az sozalır,
Qaratoyuq səsi, qulaq batırır.

- Düzü, istəmirdim heç belə olsun.
Görəsən, bu imiş alın yazımız?

Fikrin qətidirsə sən deyən olsun,
Düz olmaz tökülsə burda qanımız.

- Olmamışdım belə ömrümdə təhqir,
Gördüm mən burada çirkab-rəzillik.
Sanma ki, qarşında durubdur fəqir,
Mənim xislətimə yaddır xainlik.

Ehmalca silahı iki barmaqla,
Götür, qoy bir patron xəzinəsinə.
Atışma düz olmaz bütöv daraqla,
Boşaldıram mən də, göstərim sənə.

Vəkil əməl edib, onun əmrinə,
Bir patron götürdü, darağı atdı.
Xəyalı uzağa baxır mərdanə,
«Deyəsən həyatla vidalıq çatdı?»
- Baxıram olmadın qane şərtimlə,
Danış, razılaşdım bəlkə sənlə?

- Kişi ilə vidam gəldi gözümə;
Yığanda mənimçin nə gəldi pay-puş.
Yaşarmış gözləri dəydi üzümə.
O, mənə həm ata, həm ana olmuş,
İçində tələtüm hiss olunurdu,
Gülmək istəyirdi, üzü «donurdu».
Ata ürəyi də kövrək olurmuş!
Sən demə sonluğu qoca bilirmiş.
Məyus görkəmilə təsvir edirmiş.

Qaratoyuq səsi getdikcə artır,
Şəlalə özünü qayadan «atır».
Sanki nərə çəkir çayın axarı,
Əsgərlər üz tutub üzü yuxarı.
Gəlib çatanadək onlar hədəfə,
Ölçüb-biçmişdilər azı yüz dəfə.
Kənan yoldaşına işarə edir:
«Komaya üzbəüz pəncərədən gir».

Kapitan keçmişdi, necə təlimat,
Bir anda içəri cüt atıldılar.

Qabağa yönəlmiş halda avtomat,
Əlüstü baxışıb, çaşqın qaldılar…
Qaranlıq komada silahlar üzdə,
Axtarıb hər yeri küncü, bucağı.
Burda vardı kətil, kötük-miz də,
Hətta yoxladılar külü-ocağı.
- Bura gələcəyik bir azdan onsuz,
Ancaq o ağacda sınaqdan sonra,
Yol çəkər dəqiqə igirmi beş-otuz.
Tərpən, özümüzü çatdıraq ora!..

Komandir Əlyarı verdi çıxışa,
(Gizlicə şəkili asdı divardan).

- Burda yem olarsan, qurda, bayquşa,
Sancar düşən ilan, baxsan şalbana.

Yolüstə gölməçə, su qırağında,
Əsgərlər durmuşlar, qarşı-qarşıya.
Sanki asılmışlar, ayaqdan suda.
Vəkilsə gözlərin dikmiş havaya.
- Gəl unudaq yersiz ağılsızlığı.

Elə də sevmirəm qan axıtmağı.
Görünməz bir nəfər gizli yerindən:
- Silahı tez atın! Əllər yuxarı!

Eşitcək Urşangil qaldılar çaşqın,
İstədi Vəkil də boylansın-baxsın.
Naməlum bir əsgər yaxın kolluqda,
Saxlamış onları nişangahında.
- Çalışsaz da məni, görməyəcəksiz,
Yerə atmalısız silahı şərtsiz!..

Nəzərin zilləmiş, o rəqiblərə,
Gözləri islanır alın tərindən.
Yazığı gəlirdi, bu əsgərlərə.
Çəkərək tətiyi, dalan yerindən,
Silir gözlərini, alın tərindən.

Yeknəsək, boğuq bir səsli güllələr,
Bir anda lillətdi suyu çalada.
Havada göründü, silahsız əllər.
Qorxudan çökdülər axır-axırda,
Əkslər görürnmür, daha çalada.

- Uzanın! Dedim tez, əllər arxaya!..
Düşüb üzüqoylu, tamam lal-dinməz.

Elə bil getmişlər burda yuxuya.
Düşünüb-daşındı bu iki əsgər:

«Bu ki əsirlikdir, dinməz-söyləməz!»
Çıxıb gizli yerdən ürəkli əsgər.
Bir göz qırpımında xüsusi fəndlə
Polad qolbağlarla, oldular təltif.
«Bu hökm onda hardan?» Bilmək istərlər,
Hökm fövqəladədir edilmir təhrif!»
- İndi tez qalxın, görüm siz kimsiz?
Sizi kim göndərib, hara gedirsiz?

Qalxaraq ayağa bu iki yoldaş,
Üz-üzə baxmaqdan utanırdılar.
Vəkilin gözləri axtarır sirdaş,
Yoldaşı tapacaq, yalnış dəlillər.
Gedənlə yoldaşdır, gələnlə qardaş.
Yanaşı durmaqdan çəkinirdilər,
Çətin ki, barışsın, bu iki yoldaş.
- Əvvəl özünüzü təqdim edin siz,
Görək ki, nə haqla sual verirsiz?!
Qol çatmağa da kim, vermiş ixtiyar?
Açın, Kənan görcək səbri acıyar.
- Verdiyim suala, almadım cavab!

- Suala sualla veririk cavab!..
Yanaşaraq Kənan, tüfəng üzündə,
Əliyarsa tələsik silahın alır.
Naməlum əsgərin, gülüş üzündə
Başını bulayıb, aşağı salır.

- Baxdıqca onların «duelinə» mən,
Bildim ki, komandir, bura yaxındı.
Vaxtında onları tutmasaydım mən,
Gördüynüz su da, al-qan olardı.
- Dediyiniz qalsın hələ bir yana,
Mənə maraqlıdır, şəxsiyyətin:
Düzü söyləmək də haqqınızda,
Nə var düzyana.
Başlayın, qorxmayın, siz cəsarətlisiniz!
- Məndən soruşmamaq, yanlış olardı,
Yanılmıramsa siz gizir Kənansız…
- Əsgər yoldaşım da elə bunlardı.
- Haqqımda məlumat heç almadız?..
- Məlumat məxfidir, məndədir ancaq.
- Kapitan göndərib sizə bələdçi.
Ondan bir əmanət sizə çatacaq.
Adım Ədalətdir, əsgər-sərhədçi.
Bələdçi bıçağı, göstərir ona.
Kənansa bıçağa baxıb qaytarır.

Əl verib görüşür onlar dostyana:
- Uşaqlar, Ədalət də bizimlədir!..
- Komandir, bəlkə bələdçi qollarımızı açsın
Tamaşa çıxarırıq ki, o da oturub baxsın?..
- İndi qolunuzu açar, söylənər təfərrüat,
Məsələni araşdıraq, çıxaq yola salamat,
Bilmək olmaz, işdir, birdən açdın bizə rəvayət…
- Rəvayət, dastan sevmirəm, lap olsa da həqiqət.
- Sözdür, olmaz nağıl-dastan, olsun lap
cəfəngiyyat.
Bu ki, tələb etmir böyük mətinlik, ya şücaət…
Kəşfiyyata pəl vuranın son yeri tribunaldır.
Zatı qırığa yer yoxdur! Düzgünlük amalımdır!
Çıxsa and olsun birliyə, elə nankor içimizdən,
Cəza mənlik olmasa da, sağ çıxmaz əlimizdən!
- Komandir, indi cavanlar çılğınlıq göstəriblər…
Əl versinlər, barışsınlar, desinlər səhv ediblər.
İstəyirsən zamin durum, lap bir fürsət də verək?
- Sadəcə gec gəlmənizi, Vəkillə şərh edirdik.
Şit zarafat zəminində, həddin aşdı inciklik.
- Kiçik fikir ayrılığı doğurdu mübahisə,
Yetirdi özün bələdçi, olmadı bir hadisə…
- Yaxşı, hesab edək ki, bu, elə ilk məhkəmədir,
Biz çox yubandıq, işimiz, yola davam etməkdir.
Onda, qayıdandan sonra, ardın davam edərik,

Deyirəm bilin, mayora, dönüb raport verərik!
- Buradan şimalda uca palıd var.
Əliyar o ağacda tutmalı qərar.
Urşan aşağıda qarovul çəkər.
Snayperlə oraya nəzər yetirər.
Yenə də deyirəm: ancaq sayıqlıq!
Qalxırsan onları görənə qədər.
Dərk elə! Bu işdə boşdur lovğalıq.
İndisə irəli! Görüşə qədər.

Ayrıldı əsgərlər deyilən kimi,
İki bir, üç də bir, «dəstə» oldular.
Urşana gəlmişdi siqaret dəmi,
Yolun damarını sanki qırdılar.

- Nahaq yerə biz orada bayaq yemək yemədik,
Bu yoxuşu tox qarına bir nəfəsə keçərdik.
- Komandirin sənə imkan versə idi yeyərdin.
Nə çox əzgil, qaragilə, ye də yol gedə-gedə.
Məhşur «Qaragilə»ni də, ağacda əzbərlərdin…
- Elə komandir qərarı, düz verib sən barədə.

Çatıb yerlərinə bu iki əsgər
O nəhəng palıda saldılar nəzər.

- Hə, dağdan gəlmisən, kənd uşağısan.
Çıx ağaca, görüm, necə çıxırsan?

Əlyar qürrələndi bu sözdən bir az.
Nəfəsini dərib yuxarı baxdı.
Snayperin asaraq, tez çalın-çarpaz.
Yay kimi dartılıb, budağı qapdı.

Urşan silahını alıb çiynindən,
Ətrafı süzərək, çaxmağı dartdı.
Bu səsdən snayperçi, diksinib birdən,
Çaşqın-çaşqın durub aşağı baxdı.

Urşansa büs-bütün öz xidmətində,
Oğrun baxışlarla süzür ormanı.
Zahirən necədir, elə bati də,
Üfüqdə arayır, ağı-qaranı!

Daha da yüksəyə Əlyar dırmaşır,
Düşmənin mövqeyin öyrənmək üçün.
Xəlvəti qalmağa xeyli çalışır...
Göstərsin rəqibə kəşfiyyat gücün,
Hədəfə zərbələr endirmək üçün.

O silir cihazın optik linzasın,
İti baxışlarla üfüqü süzür…
Aparır qabığın güllə ağacın,
Atəş nöqtəsini Əlyar itirir,
O, yenə snayperin, üzə gətirir.

Keşikçi meşədə kimisə görçək,
Dinib-danışmadan ora yüyürür.
O, bir neçə ana gözdən itəcək,
Getdiyi səmtdəsə düşmən görünür.

Əliyar görüncə onun qaçdığın,
Boğuq qışqırıqla, cəld nişan alır:

- Dayan! Dön! Vuraram! Geriyə! Satqın!..
Səsi meşə boyu əks-səda salır.

Tez yan-yörəsinə atəşlər açır!
Toz-duman yayılır hədəfə doğru

Taladan bir anda Urşan sıçrayır,
Təqib etməkdədir od saçan yolu.
Ağaclar arası, qaçan yad adam,
Geriyə baxmadan cumur dərinə.
Durub atəş açır, tapanda məqam.

Çağırır Urşanı meşə şərinə,
Aldadıb aparır düşmən cənginə…

Durbinlə Əliyar, seyr edir burdan
Çıxır görüntüdən, qaçanlar tez-tez.
Minib cin atına, yox oldu Urşan.
«Şübhələr doğruldu», açıldı çox tez.
Elə bu fikirlə düşür ehmalca,
Gördü bir güllə də batdı ağaca.
Zirehli maşını o, nişan alır,
Açıq pəncərədən gülləni salır.
Gövdənin boyunca yerə sürüşür,
Düşmən arasına çaxnaşma düşür.

Burada meşənin seyrək yerində
Haçalı ağaca söykəmiş özün.
Əlyara tuşlanan silah üzündə
Bir düşmən pusquda, gizlədir üzün.

- Silahı at yerə! Əllər yuxarı!
Urşan şığıyaraq üstünə onun,

Vurur peysərindən, yıxır «şikarı»
Arxada bağlayır onun əl-qolun.

Büs-bütün üst-başın axtarır yeyin.
Çevirir bel üstə, üzün seyr edir…
Heyrətə gələrək bilmir neyləsin,
Palçıqla öz üzün tanınmaz edir.

Qaldırmaq istəyir əsiri yerdən,
Tapılır burada, Əlyar heç yerdən:

- Görəsən, o, elə həmən qaçandır?
Yoxsa mənə tərəf güllə atandır?
- Nə fərqi? Ayılar, soruş özündən,
Əclafın cin yağır, sir-sifətindən.
- Harasından vurdun? Səncə ayılar?
- Qundaqla başına vurdum arxadan,
- Ölümcül vurmağın, necə sayılar?
Başın sarısaq, ölməz yaradan.

Urşan tez çıxarır yod ilə tənzif,
Yaranı ehmalca silib sarıyır.

Davranır əsirlə o ki var zərif,
Yaralısa hərdən azca zarıyır.

Kiçik addımın da «ölçən» komandir,
Tövşüyərək çatır onlar gedəndə.
- Afərin! Təşəkkür! Tərif layiqdir!
Aparaq danışar huşu gələndə…
Urşangil əsirlə qabaqda gedir,
Kənansa onları müşayiət edir.
Büdrəyərək gedir kəşfiyyatçılar…
Qalxaraq gədiyi, bax, dayanırlar.

- Sizcə, koma deyil, bəs onda nədir?
- Saray, içində də xanımlar gəzir.
Baxmaq istəyirsən? Yenə qaçasan?..
- Əliyar, qurtarın, boş danışırsan!
- Özüm gedim, hərçənd, hamı naşıdır,
Sağ əllə çağırsam, - «hər şey yaxşıdır».
- Bir dayan! Əliyarla birgə gedirsiz.
İşarəni çıxıb birgə verərsiz!..

Urşan öndə gedir, Əliyar arxada,
Komaya üz tutub, gedirlər yəqin.
Yol boyu dadırlar, əzgil, armud da
Diş vurub atırlar, yetişməmişin…

İstəyir dindirə Kənan əsiri.
Əsir nə danışır, nə gözün açır.
«Belə ağır olur «qundaq» zərbəsi»
Sanki gözlərində bir şimşək çaxır...

Əlyar yan alıb qapı dalına,
Həmkara göstərir: «atıl içəri»!
Cumur nəriltilə, pələng ağzına,
Burda yox insanın, ətər-əsəri.
Əliyar bir andaca keçir həmləyə,
Şığıyır içəri qızılquş kimi.
Rast gəlmir komada heç bir maneəyə,
Yoxsa bu sakitlik özü bir sirmi?

Verdilər əsgərlər, çıxıb işarə,
Əliyar qayıdır köməyə doğru.

İçəri tələsir Urşan dübarə.
Yerbə-yer sallanmış hörümçək toru,
Şübhəli yeriyir, şəkilə doğru.
Əksini götürüb diqqətlə baxır,

Əlini qaldırıb, üzünə vurur.
Tez də ayılaraq, eşiyə çıxır,
Qurumuş palçığı üzündə ovur,
Gələcək şərləri özündən qovur.

«A… belə görünür Qarik, o, tez-tez olur burda?
Axı bir vaxt olmuşuq biz onunla Sumqayıtda.
Yaxşı, bura gəlişimi, mənim o, hardan bilir?
Aydındır. Nə olar, demək məni ifşa etməyə
gəlir…
Bəlkə də, bunu eləyən elə bizimkilərdir?»

Qarmaqarışıq fikirlər qaralтmışdı qanını,
Qoymağa da yer tapmırdı o günahsız canını.

Əsirlə içəri [illegible] girdilər,
Söyk [illegible]ürcə yarıuzanmış.
İçəriyə dəqiq göz gəzdirirlər,
Burda da bitəcək bütün yoxlanış!
Kənan təklif edir nahar etsinlər,
Ocaq çatmaq üçün, gedir odunçun.
Onlar bölüşürlər: hara getsinlər.
Əliyarsa yollanır dərhal su üçün.

Qalmışkən təklikdə, Urşan əsirlə,
Düşünüb-daşınır, neyləsin bilmir.
Əlləşir, çarpışır, öz dərd-sərilə,
Üzünün palçığın hələ də silmir.

- Bilirəm gəlmisən, hansı məkrlə,
İstərdim tezliklə, durasan burda.
Baxım gözlərinə qürur, fəxrlə!
Torpaqçin gələnlər, tuş gəlir qurda.
Xalqınız sən demə, çürüyən «şişmiş».
Unudun biryolluq, Azəriləri
Millətinlə dostluq, aldanış imiş.
Sizə yaddır həyat, insan hissləri,
O «şişi» kəsdirmək müşgül işimiş!

Duraraq ayağa, baxır Qarikə,
Bağlıdır hələ də onun gözləri.
Gələrsə özünə, bu da təhlükə,
Urşan ayaq üstə, əsir dizləri.

Hər ikisi yaxında,
Yığır odunla xəzan,
Yandıracaqlar ocaq,
Asacaqlar da qazan.

Kənan keçirir gözdən, yeri-yurdu, kol-kosu,
Bu füsunkar meşənin bir rayihə, qoxusu.

Elə də çox keçmir gəlir Kənangil,
Qucaqlar odunlu, üzlərdə alov.

- Gəl Urşan. Ala su, üzünü yu-sil,
Hələ hava xoşdur, düşməyib qırov,
Biz sonra bəzərik bir-birimizi.
Bəzərik, doğmalar heç tanımasın.
Gör necə bu əclaf tapıbdır bizi?!
- Düzü, qorxuram ki, o, oyanmasın.

- Biz çöldə olarkən, heç ayılmadı?
Arada elə bil səs gəldi burdan.
- Düz tapdın, Komandir! O, ayılmadı.
Amma lap istərdim, xortlasın gordan.
Kimsə mənə qarşı şübhə yağdırır,
Bu şəkil də bura düşüb nə üçün?
Mənə inamsızlıq məni yandırır!
O, niyə məhz burda, tapılıb bu gün?!
Urşanın ani bir fərziyyəsindən
Sanki Qarik özü səslənir birdən:
«Sən ki, özün dedin, yaddan çıxardın?..
Hələ bir kağız da yazıb vermişdin…
Çox axtardım, axır sən özün tapdın.
Düzünü de, məni ölmüş bilirdin?»
- Yalan deyirsən yaramaz!
Sən… ikiüzlü qancıq!
Kağız göndərsəydim,
Səndən qabaq tapardıq.
Deyirəm ki, olmasaydız,
Siz yer üzündə əgər,
Bütün xalqlar xoşbəxt
Yaşamazdılar məgər?

Yaralı başında ağrı hiss edir,
Əliyar Urşana, oğrun yan alır.

Urşan silah qapıb tətiyi çəkir,
Bütöv bir darağı, Qarikə atır…

-Bilmirəm tapılıb dostun, neçə gündür… ya dünən…
Bircə onu bilirəm ki, sən də nəzarətdəsən.
Əliyar… Axtar üstünü, tər-təmiz, silahın al,
Ayılsa biz, keçinsə də, baxar hərbi tribunal…
- Sən hələlik qulluq elə ona öz balan kimi,
Oyanmazdan qabaq, gəlir belələrin him-cimi.
- Kənan, bunu, nə mən, nə də Tanrı bağışlar sizə.
Ayılandan sonra bilsə, gülər o ki var bizə.
- Ayılmasını istəyirəm, dostunun elə mən də,
Bizimlə otur, utanma, gəl nahar elə sən də.
- Naharınızı eləyin, zəhərdir mənə yesəm!
Bilin ki, bu saatdan da, aclıq elan edirəm…
- Özünə qıyma. Görürdüm üst-başını axtaranda,
Şübhələndim bir palçığı, tez üzünə yaxanda…
- Aha!.. Deməli, arxamda mənim kəşfiyyatdasız?!
O, şəkili də bura siz, gətirib qondarmısız!..
- Əleyhinə bilirsən var məndə sübut-dəlil də,
Lap istəsən, üstəgəl bir yarıcanlı zəlil də.

Bidonu götürür Urşan, çöldə üzünü yusun,
Həm də bir neçə dəqiqə, özü təklikdə olsun.
Əyilərək sulu qabı, o başına əndərir,
Sonra dəsmalı çıxarıb, boyun-başını silir.
Lapdan güllə səsindən, çöldə qulaq tutulur,
Hövlnak qab əlində Urşan içəri cumur.

- Nədir? Qaça-qaç düşüb? Onu biz qoruyuruq.
Məsəl var, «Bir gülləyə, iki dovşan vururuq».
Güllə nəyə dəydiyin, əgər bilmək istəsən,
Tavandakı dəliyi, bir qədər böyüdərsən.
- Məxrəcli danışığız burda nə vaxt bitəcək?..
Görürəm yol getdikcə, o da tükənməyəcək…

Təlaş içində Urşan, əsirin nəbzin sayır.
Su qabın onun qanlı sifətinə boşaldır.

- Onu elə vurmusan, bədbaxt bir də oyansın?!
İstəsəydin ayılsın, başqa sayaq tutardın.
Bir də onun qolların bağlamaqla arxada,
Yayınmadın şübhədən, əksinə o artdı da.
- Açıram bax, qolların, sən gəl bağla qabaqda.
Bir anlıq fikrə gedir kəsir suallarını,
Açır göz qırpımında casusun qollarını.
Bura bax. Asın! Kəsin! Burda doğrayın məni!

Atmaca atmanızdan, heç yorulmadın yəni?!
Baxın, mən silahsızam, bəlkə özün vurasan?!.
Sonra bir başçı kimi, yenə düzüb-qoşarsan!
- Daha lap ağ elədin! Bəsdir, burda bağırdın!
Əməlinə xeyir verməz cızığından çıxmağın.
- Dayan, nəsə görürəm, düşüb kürkünə birə.
Sən özündən çıxmazdın, elə belə boş yerə?..
- Sizi anladım. Deyən, mütidir məziyyətim,
İnşallah getməz bada indiki əziyyətim.

Əlbəsə çantasına yan alıb onu açır.
Tikəsin qoyub Əlyar, silahına əl atır.
Kənan saxlayıb onu: «görək bir nə çıxardır»?
Götürüb o kəndiri, fəndlə şalbana atır,
Ucunu həlqə edib, onu boynuna salır.
Əlyar cəhd edir ki, bir təhər mane olsun:
«Bəlkə də özünəqəsd fikrini o unutsun?»
Məhkum kötüyü yıxıb, sallanırdı kəndirdən,
Çavuş dözmür sıçrayır, közlə dolu təndirdən!
Qartal uçuşu ilə qucaqlayır Urşanı,
Kənan atəşlə ipi qırır, dəlir şalbanı.

Casus dik atılaraq küncdə güllə səsindən,
Götürür yaxındakı avtomatı yerindən.
Əsgərlə əlləşirlər ağır gəlir nəfəsi,

Ölümlə pəncələşir, Kənanın yox qüvvəsi.
Qarik tutmuş onlara avtomatı bu zaman,
Atəş gəlmir tüfəngdən, eyləyir onu peşman…
Qalxaraq bir əlilə, tutur qanlı peysərini…
Kənan yan alır ona, silib soyuq tərini.
Soyuqqanlı, divara sıxır onu döşündən:

- Düz deməsən, çaqqallar, şam eləyər leşündən.
«Dərə xəlvət tülkü bəy», oxşayıram hərifə?!
Bilirsən, sənin başın, necə gəlir hədəfə?.
- Ordan gördük ağaca dırmaşırdı bir nəfər,
Snayperim yox, odur ki, yaxın gəldim bir qədər.
Düzü hünərli əsgər olmadı mənlə gələn…
- Bəs bizim dili belə, hardan yaxşı bilirsən?
- Hardan?.. Orta məktəbi, Sumqayıtda bitirdim.
- A… Ediklə az qırdız, burda davam edirsən?
- Edik?! O, vaxta qədər, heç kəsə dəyməmişdim.
Bir gün yolumu kəsib: «Bax, bizə qoşulmasan,
Bacını tutub… o söz, «sonra ölü taparsan».
- Necə bilirsən səncə böyük günah olardı?
Məncə bir vələdzina da içinizdə artardı…
- Ağacdakı adama sən neçə güllə atdın?
- Ona mən iki güllə… onlar da heç dəymədi.
- Səni təqib edəni bəs de görüm tanıdın?
- Yox. Bilmədim. Bəlkə o, elə sizlərdən idi?..

Kənan ona yan alır, daha yaxın oturub:
- Bu şəklə yaxşı bax, kimisə tanıyırsan?
- Hə… Mənəm… Bu da Urşan, hə, qonşumdur oturub,
Bağışlayın… Olar?.. Bu şəkil sizə hardan?..
- Neçə nəfər postuzda qaldı? Tez ol düz danış!
- On… Yox… doqquz. Sabah da on üç nəfər gələcək.
Daraqdan keçirməkçin ətrafı qarış-qarış,
Sonra komandir «on da» əsir də dəyişəcək.
- Bu günlük bəsdir. Sonra, qalanın da ətraflı…
Əl vurmarıq, dediyin, olsa doğru, tutarlı.
- Komandir, bəlkə «şəkli», verəsiz məndə qalsın?
- Yaxşı olar, yanında oturan qoy saxlasın.

Əliyar kömək edib qaldırır Urşanı,
Günahsız baxışlarla o nəsə arayır.
Görür al-qan içində, küncdə Əsiryanı.
Toqquşur baxışları, lal-dinməz dayanır.

- Urşan, dostum! Bu sənsən? Məni sən qovurdun?
Bəs sən indiyə qədər nə üçün susurdun?
Komandir, məni təqib edən də burdadır.
Al, o dedi, şəkildə oturan saxlasın.

Urşanın daxilində quduz, vəhşi oyandı.
Qaynar bir qazan kimi qeyzindən qaynadı.

- Onlara Sumqayıtdan ətraflı danışdın?
Əmioğlumu niyə, öldürüb, tez qaçdın?
Necə «behbudu», onun kürəyinə sancdın?!
- Komandir qoymayın! Yox, məndə günah
yoxdur!
Edik məcbur eləyib, müqəssir də odur…

Göstərir behbudunu Əsiryana nifrətlə
Urşana baxmaq çətin indi qatilə.
Əsiri tutmuş əsmə, uydurma dilə gəlmir,
Qurumuşdu boğazı, heç udquna da bilmir.

- Dedilər ki, ya səni… Ya əmioğlunu!..
Çıxılmaz vəziyyətdi, seçdim mən də onu…
- Xeyr, onu yox, sən məni, öldürüb qaçmısan?
Bax burda da, onunla üz-üzə durmusan!

Bu anda qəzəb yağır Urşanın üzündən.
Cumub tutur Əliyar onun biləyindən:

- Əsiri bil, vurmağa ixtiyarımız yoxdur,
Qisasını almaqçın, vaxtımızsa çoxdur.

Kənan baxır onlara, gah düşgün əsirə,
Qorxurdu məruz qalar Əlyar bu təsirə.
Bu anda qəfildən «behbud» düşdü yerə,
Qamarlayıb yiyəsi tez götürdü ələ

- Bilirəm, onsuz məni əfv etməyəcəksiz.
Ölü kimi də belə dəyişməyəcəksiz!

Atılıb ölüm-dirim, döyüşünə onlar.
Komandirin üzündə göründü bir vüqar.

- Öldürmək istəsəydik, canın tez alardıq.
«Behbud»u gəl at yerə, sizi barışdırrıq…

Razılaşmayıb yenə hiyləgər Əsiryan,
Hucumda komandirin, qan sızır qolundan.
Gizir bərk qəzəblənib onun həmləsindən,
Bir təpik də endirir qanlı peysərindən.

İtir müvazinəti, aşır pəncərəyə,
Ayılaraq istəyir qaçsın cəngəlliyə.
Kənan kəndir götürür, bağlasın qolların,
Dəlir keçir casusu gülləsi Əliyarın.
Qolundan sızır qan, ağrıdır Kənanı.
Köməkləşib Əliyar yaranı bağlayır.

Ağrı toxtayır bir az, laxtalanır qanı.
Urşan, Əlyarı tutub bir yana ayırır.
Küncü ona göstərib, yumruqla yollayır.

Əsgərlər uzanmışlar, qayada – pusquda
Eşitdilər boğuq bir güllə səsin onlar.
Ədalət tez bilməkçin, nə olmuş komada,
Qapıb silah-sursatı, Vəkillə atlandılar...

Canhövlü girsələr də, durub ehtiyatla.
Suallı baxışlarla süzüb mənzərəni.
Çağrılmamış qonaqsa vidalı həyatla
Müqəvva gövdəsilə tutmuş pəncərəni.

Vətən yolunda tapşırığı saf, müqəddəs bilir onlar,
Gedirdilər dağ meşəsilə, beş nəfər kəşfiyyatçılar.

Tələsir qabaqda komandir, hərdən iməkləyir…
qaçır,
Bu an arxadan gələn Urşan, durub geriyə
boylanır.
Özlüyündə nəsə danışıb, götürülür əks tərəfə.
Bunu eşidən kimi Kənan: «Görən nə tapıb bu
dəfə?»

O geri dönür de bayaq, heç demir də gizirə,
Girərkən qapıdan Urşan, inanmır öz gözünə,
Elə bil meyidi kimsə dartır çölə, özünə.
Qayıtması əngəl idi, indi bu da bir əngəl,
Süzərək ani ətrafı, qalmadı çox məəttəl.

Çıxaraq burulur evi, yeriyir ehtiyatla,
Tindən arayır Qariki, üzündə avtomatla.
Urşan çatdırıb özünü, vüqarla baxır ona.
Nəfəsi qarışmış onun köpüklə axan qana.

Artıq qərarlıdır Urşan, yerə qoyur çantasın,
Dizə çöküb baş tərəfdə tez çıxardır baltasın.

Heç fikirləşmədən onun əli qalxır və enir
Baş bədənindən ayrılıb çəməndə diyirlənir!..

Balaca bir açıqlıqda, gözləyirlər əsgərlər,
Mövcud olan vəziyyəti Kənanla şərh edirlər.

- Mən heç nə başa düşmürəm, əvvəl tərksilah etdiz,
Çox keçmədi yenə ona götürüb silah verdiz.
- Qulaq asın, hələlik ki, burda mənəm komandir,
Mənim verdiyim qərar da müzakirə edilmir!..

Bələdçi eyhamı çox da açmadı komandiri
Var-gəl edən Əliyarsa çeynəyirdi zənciri.

- Şübhəsiz təqsir məndədir, vurmaq tez idi hələ,
Qorxdum ki, sonra gec olar, bizə qurardı tələ.
- Özünü üzməyə dəyməz, o «məkan» hökmü idi
Onun kimi gələn casus, elə də getməlidi!

Bu anda gördülər birdən, Urşan qan-tər içində,
Boylanır, qaçır irəli, ağır çanta belində.
Çataraq fərəqət durur, bilmir nədən başlasın:

- Komandir, bağışla məni, dedim iz-miz
qalmasın,
Həm də ki, istəmədim bir əşya-dəlil saxlansın.
Üzr istəyirəm hamıdan, gedib şəkli götürdüm…
Qəbahət bir iş tutmuşam, sizdən xəbərsiz
döndüm.
Tanrı eşidib andımı, mən də çıxmadım xilaf.
Göydə axtarırdım onu, yerdə tuş gəldi əclaf!
Komandir, gəl əfv et bir də bu özbaşınalığı.
Etmərəm belə qələti, keç bu istibaşlığı.
- Şəkil elə «ağırdı» ki, çantaya qoymalısan?
Bu belə çox əfsəl deyil, əsas odur burdasan!..
- Yenə Kənan, sənə məxfi, deyilən bir sözüm var,
Məndə olan qeyri-adi, yükün çək-çevri ağır olar.
Qayıtmağım təlx etsə də, tək əmimin ovqatın,
Qiyməti də hədsiz olar, gətirdiyim sovqatın.
Demək istəyirəm, Kənan, orda ölüm-itim var.
Qorxuram yeganə arzum da ürəyimdə qalar!
Düşsəm gər, bu «əmanətlə», düşmənlərin
cənginə…
Fikrim sənə bəllidir, çox getməyin dərinə.
Düz başa düşün, davadan yox zərrə qədər
qorxum,
Neçə vaxtdır da gecələr qarışıq gəlir yuxum.
Mənimçin cavan anamın ruhu bil, müqəddəsdir,

Məncə Vətən dardadırsa, yaşamaq da əbəsdir!
- Fikrin mənə aydındır, deyirdi saf gözlərin,
Kövrəlməyə də bilməzdim, alovluydu sözlərin.
Buralardan tək qayıtmaq, nəsib olmur heç kəsə,
Tanrı özü kömək olsun, get qoymuram da səsə.
Yadda saxla dediyimi, çalış nə gözə görün,
Qaç, özünü at qayadan, həm iməklə, həm sürün!
Haydı, yolçu yolda gərək, bizi də vaxt səsləyir,
Səmtin daim olsun külək, yurdun səni gözləyir.

Vidalaşıb komandirlə, yola düşməzdən əzəl,
Yanında duran Vəkillə qucaqlaşdı o, əvvəl.

Ayrılıq kövrəltdi bir anlıq onu,
Çalışıb biruzə vermədi bunu.
Hamıyla birbəbir görüşdü Urşan,
Birdən Ədalətə yan alıb Kənan:

- «Nişanı» ver ona, qoy o aparsın,
Göstər kapitana, səni tanısın!..
Buradan birbaşa, evə gedərsən,
«Hissəyə» sübh tezdən yola düşərsən.
Gedib kapitana, «məruzə» elə,
Danış olanları, gələndən belə.

«Bıçaq» aramızda, şərti «əşyadır»,
Etibar üçündür, «məxfi nişandır».
«Bıçaqsız» hissəyə gedə bilməzsən,
Getsən də heyətə cəlb edilməzsən.
Ordudan yayınan olar sər-səri,
Hissəyə dön hökmən çıxma «fərari».
Daha gün əyilib, uğurlar sənə,
Çalış düşməyəsən dumana, çənə.

Çatıb həmən yerə, dayanıb durdu,
Süzüb önündə ətraf yerləri,
Başını bulayıb, acı udqundu.
Gözü önündə Vəkil dururdu:

«- Kişi ilə vidam gəldi gözümə,
Yığanda mənimçin nə gəldi pay-puş.
Yaşarmış gözləri dəydi üzümə.
O mənə həm ata, həm ana olmuş.
İçində tələtüm hiss olunurdu.
Gülmək istəyirdi üzü «donurdu».
Ata ürəyi də kövrək olurmuş!
Sən demə sonluğu sanki bilirmiş…»

İnlədi qəlbinin, zəif telləri,
Birdə görəmməzdi o bu yerləri.
Yoluna düzəlib davam etdi o,
İndi üz-gözündə, qeyri-adilik.
Bu yolla evinə rəvan idi o.
Ətraf qorxuludur, yoxdur sabitlik
Bütöv görkəmində qeyri-adilik…

Bu yerlər təhlükə, bu yerlər şaşıq,
Gedirdi dörd nəfər qorxmaz nər kimi.
Bir-birindən sağlam, əlbətdə sayıq,
Keçirlər «tərtəri» bir zəncir kimi,
Kəsirdi soyuq su, bir xəncər kimi!..

Yanaşıb igidlər Kəddam kəndinə,
Görünüş davadan, verirdi soraq.
Yolçu möhtac qalar su səhənginə.
Evlər viranədir, yanmır bir ocaq,
Uçulmuş bu evlər, necə soyuqdur,
Güllədən divarlar oyuq-oyuqdur.
Əsgərlər indicə keçərkən burdan,
Heyrətsiz, hisslərsiz keçmədilər də.
Baxaraq Ədalət uçquna yandan:
- Lap yaxın keçmişdə, yay tətilində,
Gəlirdik dostumla balıq ovundan
Cavan gəlin gördük, belində körpə.
Gəlin bu həyətdə edirdi alaq,
Hər tərəf sakitdi, batardı qulaq.
Gəlinin surəti, o məsum çöhrə,
Görcək əl uzadıb, çağırdı: «Ata!»
Çəpəri adlayıb, verdim bir çapağ,
Tutqun baxışları etmədi «əta»
Bu evlərlə çəkilmiş, sinəmizə dağ
İndiki bu həyət, bu divar, bu bağ
Çeşməsi quruyan, kor olmuş bulaq.

O tutqun üzlərdən qalırdı uzaq
O, məsum körpədən, verirdi soraq. –
Əli ulqumunda bələdçi durur:
- Komandir, aldığım, məlumat budur:
«Bir qrup əks tərəfdən, bax o evdə olur».
Deyildiyi ev də, dayım evidir…
Kəndin ortasında, o kümü dəmir,
O evdən də gəlmir, heç bir səs-səmir.
Başqa bir xəbər də, mənə veriblər,
Amma onu təsdiq tam etməyiblər.
- Bəlkə də yağışdan gizlənir onlar…
Hər halda yoxlasaq, pis olmaz məncə.
Görünür hər şeydən arxayındılar.
Mövqemizi tutaq burda sakitcə,
Alaq dincimizi, yağış kəsincə.

- İstərəm diqqətlə qulaq asasız.
Hava qaralanda Ədalət-Vəkil,
O, evə birlikdə yan alacaqsız.
Ədalətlə keçib, sən yerə səril.
Qoruyanda onu, dörd gözün olsun!
Fürsət verməyin heç, nə olur-olsun!
Çalışın oradan görünməz gəlin,
Lazımı hər şeyi dəqiq öyrənin!

İtin olmasını əvvəl yoxlarsız,
Hərə bir qumbara hazır saxlarsız

Çantanı belindən əlinə alır,
Qorxu güc gəlirdi, enir yoxuşu.
Çantanı hil verib, qabağa atır,

Başında tükləri kirpiyə dönmüş,
Enişlə bilmədən dərəyə düşmüş.

- Qarikin ruhundan, çıxmış heyvanlar!..
Gəlmişlər qisasın məndən alsınlar?!.
Çəkməyir məndən əl, kəsikbaş mənhus,
Öz başın dərədə haqlamış «kabus!»..

Bu fikirlə Urşan, yönəldib silah,
Aramsız atəşlə, apardı «islah»:

- Hə, hə… gəlin görüm, qisas alanlar!.. –
Fənərin işığın onlara vurdu.
Bir çaqqal gəbərmiş, can verir dovşan.
Salamat, yaralı, dərbədər oldu!
Otlar əzilmişdi, qoxurdu yovşan
Fənəri qorxudan söndürmür Urşan.

Buludlar çaxnaşıb etmişdi yarış,
Sübhdən axşamadək yağmışdı yağış.
Çağırırdı göydə ulduz-ulduzu.
Hardasa mələşdi qoyunla quzu,
Yaxşı ki, yox idi itin quduzu,
Palçıqda səssizcə getmək çətindi,
Evə yan aldılar Ədalət, Vəkil.
Baxmaqçın həyətə Ədalət keçdi,
Dalıycan durmayıb adladı Vəkil.
Evin arxasında tövlə də vardı.
Qapıdan aralı, dururdu «UAZ».
Tövlədə vedrəyə, süd sağılırdı.

Boylanıb Ədalət, görür nataraz,
Arxası qapıya, inək sağırdı,

Dana da fağırca ona baxırdı.
Süngünü Ədalət boğaza sıxır:

- Səssiz! İçəridə neçə nəfər var?!
- Cəmi dörd nəfərdir, «poker» oynayır.

- u À Õ Ø Ó Õ À Ê Ê Ì Ä Ã ¿ Ð Ë Ô ! Ð Ë À Ð
- z Ð Ä Ù À Å Ê × È Ã À Ë , Ì « Ü Æ » × Á È Ä Ð ¿ Í ¿ . Ä È Ð
- v Î Ì À Í Ä È Ð À Æ Ë Ó Ö Ò Ñ ¿ ¿ Ä Ã Ë Ë Ð
- z Í Ó Í À Ä Ì Ù Ø Î , Ò Ê Å × Ì Ì È Ø É Î Ð , Ä Ó Ð
m Ó Ð À ¿ Ã É À À Õ Ì Ø È Û À ¾ Ä Ú Ó Ð
- } ¿ Í È Ä Ì Ä Û ¿ Ä ? È Þ Æ Å É Î Õ Ë À Ì À . Ã × Û Í
… ¿ Ø Å Æ È Ç Å Ñ Á Í ¿ Ë Ñ Ë À Ã Ù À Ë . Ä Û Í
- l Ä Û Ì x À Í Ó × À , Ð Ë Ä ¿ Ú Ã Ð Ò Á À Ð À . Ê À Í
- € ¿ Ð Ù Ê À Ë Ä Ø Æ Ë Á Ñ Ë ¿ Ò Ð À Í Û É ? Û Ð Ä Û Í
z Í Ó Ä Æ Ä Å É Ê , È Á Ô Ö Ë Î Ë Ó Í Ä . Ó Ð
} À Ü Ä Û È Ú ¿ Ú Ë À È Ä « Û Ð Ç Ó » Ä . Ó Ð

‹ Ä À Ë Å ¿ Ø Ò È Æ Ä Ê Æ Ñ Ã ¿ Ñ È Í È
m È À Ð Í Ë Æ Ù Ã Ð Ì ¿ Ì Ä Ã È Ô ¿ . Ñ È Í È
n ¿ Ê È Ï Ë Ó Ñ Ñ ¿ Ê Ó Ä Ý À Þ Í Ð Ç Ö Æ Ä Á È Ò È
l Ü Ç Û É « Ë Ë Ã Ø À Ê Ð Ñ Ò ¿ Ä Ñ Ø Ê ¿ » Ð Ò È
s À Á Ë Ò Ø Ò ¿ Ê Ø Þ Â Ë Ä ¿ Ó É Ð ¿ Ó Á

- q É Ò À Ð Æ « Ë Æ Ì À Ã Ó Ð Á Ø Ù Æ . Ó Á
- l Á Ð È Ê Ç È ¿ Ì × Ú Õ z Ä Ù Å É Ñ Ä ¿ Æ Ø Ç È
z Í Ó × À Ù Ã Ú Ê , È È Í ¿ Ë Ê Ë Ô Ë Ø Ç
- ~ À Ð À ! Ê o À Ó Í Ð Ö Ä Ã À Ë ¿ Í Ä ¿ Ó Ä Ó Ç , Ä Ó Ì
m À Ü , Û Ñ Ø ¿ Ë Ä Æ ¿ À Õ Á Û Ð Ú Ë Ó É Ä Ó Ì
p À É À Ñ Æ Ë Ì ¿ . Ä Æ Þ Ð Ä Ö × Í À Ú Ö Ì Û Ð
- t Í ¿ Ê Ë , Ô À É Î Ý ¿ Ê Ë Þ Ì ¿ Æ Ë ¿

O, söyərək gəlir, atasından belə,
Ədalət mayorun gördü gəlişin,
Axıra çatdırdı tutduğu işin.
Söykədiyi yerdən süngünü çaldı.
Vedrəni əndərib başına saldı.

- Bir də bu dananı, incitməyəsən!
Fərhad dayımın da, əlin öpərsən.
Göründü qapıda mayorun başı,
Tüfəng qundağıyla «görüşdü» qaşı.
Burda Vəkil yetib, qolların burdu,
Əlüstü arxada qandala vurdu…

- Evdə üç nəfərdir, haydı qaç ora!
«Göyçay» meyvəsindən» daddır onlara!

Vəkil evə gircək onları gördü,
Şirin kart oyunu «vulkana» döndü!
Alovun içində düşmən bişərkən,
Atəş açа bildi Vəkilə birdən.

u À Ð À¿ ÑÑÚÝ ¿ÑÐÈÈÍ ÍÃ ÑÄ ÊÄ À
p Ö Ø Ì ¿ Í ÉÉ À¿ ÐÛ ÈÐ ¿Ä ÐÛ ÈÉÐ À Í Ä À

m Ó Ð À‹ ÄÄ À Ë À¿ ÒÒÉ¿ ØÜ Ä¿ Û Ð Û Ð
o Û Ø Ã ÚÃ Ä Ð À Ð ÄÄÛÀÑÙÑÀ¿×ÑÛ Õ Ì Û Ð
n ¿ Ê È Æ ËÈÃÐÎ ËÀÓË Î Â Ë À¿ Í Û Ð Ä Û
} È Í ¿ÀÑÙÈÐ¿ÛÒÉ¿ÛØÐÉ À¿ Í Û Ð Ä Û
‹ Ä À ËÑ¿ÐÍ Ä ÖÎÐÓÚÍÐÎ Ë Ó¿ Í Ó
‰ Þ Ñ ÒÙ¿¿ÐÉÈ×ÐÛ ØÉÛ ÜËØÓ Í Ó

x À É Î Ð ÑÑ Ê¿ÔÌ Å ÖÉ È Ä Ä Å¿ Ì Ò ¿ Ð
m Þ É ÜÀÊÐ Ò Ë À Æ Ä ÛÅ Ø ÆÐÆ¿ ÄÆ¿ Ð
m ¿ Ë ¿ Ä Ä‹ ÉÊÐ×Ó È ¿Ì Ò Ó Ð¿ Ò Ä Ó
‹ Ñ È Å Ð ËÄ¿ È ÉË È Ì ÑÄ¿ Â Ó¿ Ð Ä Ó
p À Õ È ËÄÄ Ì Ð¿ ÍÕ ÖÑÙÙÒ¿ Ï Ó Ð Ä Ó
v ¿ Í À Í ‹ ÆÄ È É×ÀÀÐÒÀÛÕÁÛ Ð Ä À
- p Å Ä ÈÀÌ ÕÌ ¿ Í Ñ¿ ÈÄÇÉ ÎÙË ÓÁÌ Ó Ð?Ä À

‹ Ä À ËÞ¿ÇÖÒÌÍÄÖØ ÛÄ‹ Ä¿ Û Ð
z Ò Ó ÐÌ ÕÒÁÎ ÐÖÅÈÇØÑ¿À Ë Û Ð

- ~ ¿ Ë ¿ ÑÉÈÈÍ ¿¦ Ø.È¿Í É ¿ Ò× Ä¿ ÕÍ À Ã
~ È Ê ¿ ÙÈÀÇÏ Û ËÄÌ Ç¿ ÚÉ Ä Õ Á À Í Ñ À Ã
m ÓÉ À Í ÜÃÛÄ‹ Ë Õ ÖÙ ÑÚ¿ Ð Ò ¿¸Á ¿ É ¿
m Ó Ð ÀÁ ËÀÐÉÄ Ø × À ÚÝÀÞÄÉ ¿

Həyətdən çıxaraq maşın gedirdi,
Vəkilin səhhəti ağırlaşırdı.
Aramsız partlayış davam edirdi.
Yanğın «mərmiləri» yolu aşırdı.

Palçıqlı bu yolla «Cip» sürüşürdü,
Vəkil yarasından bərk üşüyürdü.
Alovdan üzlərə işıq gəlirdi.
Mayor daxilində için yeyirdi.

Çataraq əsgərlər uçuq bir evə,
Vəkili burada rahatladılar.
Kənan çantasını boşaldır yerə.
Nəbzinə Vəkilin qulaq asırlar.
Yaraya bint qoyub tez sarıyırlar.
Kənan dayanaraq nəfəs-nəfəsə
Qolunu çırmayıb iynəni vurur.
Komandir yəqin ki, unutmuş nəsə.
Gərginlik keçirir ayağa durur.

- Əliyar, çölə çıx, göz-qulaqda ol!
Çox uzağa getmə, hər səsə şəklən.
Diqqət ver hər şeyə, hətta olsa kol,
Nə gördün, eşitdin, ona şübhələn.
Bir azdan özünə gələcək Vəkil,
Qorxuram başlansın yenə ah-fəğan!
Verərik buranı Tanrıya təhvil.
Çatdırıb Tər-tərə axtararıq qan.
Tapaq yaxşı cərrah, edək and-aman!..

Gəlincə özünə Vəkil iynədən,
İstəyir söz alsın Kənan minyordan.
Komandir mayorun ağzını açır,
Bıçağı dinmədən xılxına atır:

- Əhalini qovduz siz öz yerindən,
Qız-gəlin sorağı gəlir bu kənddən…
Murdar əməlinizdən, xəbərimiz var,
Çalış düzünü de, canını qurtar!
Əgər dediyində yoxsa həqiqət,
Bil ki, görəmməzsən məndən «bəraət».

Düzgün danışanın olur seçimi.
Səni dəyişdirrəm bir əsir kimi!..

Bıçaq öz işini görmüşdü çoxdan,
Mayorun sifəti ağ idi qardan.

- Var daha bir məqam, özümüz tapsaq,
Bizə gərək deyil məlumat-sarsaq.
Sezilsə ki, əsir bizi azdırır,
Ona bel veririk, qəbrini qazır!..
Kim xəbər tutacaq bu səs-soraqdan?
Meyidi asarıq burda ağacdan.
Nə çox buralarda vəhşi yalavac,
Ayağa dolaşır cəsədə möhtac!..

Çıxandan keçməmiş heç yarım saat.
Əliyar tanınmaz içəri cumur:

- Komandir, biz azıq, gecədir heyhat!..
Dağın ətəyində, bir bina durur.
Zəif işıq yanır, orda nəsə var.
Bəlkə qadınlardır, saxlanır orda.
Şübhəmiz düz çıxdı, burdadır onlar,
O evdən səs gəlir, işlənir zor da…
- Siz danışın, mayor, növbə sizindir,

Yalnış ifadəniz öz düşmənizdir!
De görüm, qarovul neçə nəfərdir?!
Nə vaxt dəyişilir, silahı nədir?..

Əsir cavabında dikəlir azca.
Dili topuq vurur, dinir yavaşca:

- Mən orada bir dəfə, olmuşam qonaq.
Otuz nəfər qadın, orda qalırlar.
Onlarla bir qız var, adı Gülyanaq.
Qohumdur əclaflar, buraxmadılar!
Gördüyüm silahsa avtomat idi.
Olsa da qumbara, xəbərim yoxdur.
Başçı da leytenant, qara sifətdi.
Dörd nəfər bilməyin, elə də çoxdur,
Növbə dəyişməsə, səhərlər olur…
- Yaxşı, tələsirik, bu qədər bəsdir.
Çavuş, bağla ağzın, səsini kəsdir.
Dayının evindən, hali olarlar.
O zəif məxluqa, divan tutarlar!..
Bir saata qədər, olmasaq burda,
Maşınla tez çıxın, qalarsız darda.
O vaxta Vəkil də gələr özünə,
Əsası odur ki, düşdük izinə...

Yol boyu əsirdən ehtiyat eylə,
Verməyin «Tər-tərdə» maşını selə!..

Əlyarla çatanda, dağ ətəyinə,
O evdən arabir gəlirdi səslər.
Duyaraq ehtiyac dostun rəyinə,
Əliyar keçirir qəribə hisslər:

- Bəlkə bu həyətdə batalyon yatır?
Daşnak köpəkoğlu bizi tovlayır?..
- Yox, yox, inanıram, ona nədənsə,
Beləsi aldatmaz hətta istəsə...

Binanın ətrafı hündür hasardı,
Həyətdə yadları kəsib-asardı...

- Cəhd elə onlara yan al böyürdən.
Mən ağacdan düşüm evin kümünə.
Gözlə girovları, vurma qəfildən.
Əgər biz inansaq minyor sözünə,
Orda üç nəfərdir, bəs biri hanı?

- Bəlkə içəridə, o «həddin aşır»…
- Dediyin tək olsa, iş ağırlaşır!..

Bu vaxtı bir qadını evin dalından,
Bir əsgər gətirir, tutmuş qolundan.
Qadının üz-gözü dağınıq idi,
Onunçun işıq da qaranlıq idi.

O, əsgər yenə də dartır qolundan:

- Bura bax, indi də deməyəcəksən?!
- Yox! Çünkü heyvansan, insan deyilsən!
Kənan hasar boyu cumur dalana,
Can atır tez çıxsın, evin damına.
- Xəbərim olsa da harda olurlar,
Satmaram onları, əmin olsunlar!
- Qulaq as, biz heç nə bilmirik inan,
Əl çəkin, işiniz olmasın onnan!

Saqqallı bir qədər, yaxına gedir,
Gəlinin üst-başın yaxşı seyr edir.
Yapışıb yaxasın cırır büs-bütün,
Baxır gəlin necə mətindir-mətin…
Leytenant özündə deyinir-«hürür»,
Gəlin də durmayıb ona tüpürür.

Duruxur leytenant, tez atəş açır,
Qadının ikisi qana bulanır.
Adətən bu halda, qopur qışqırıq!
Atəşlər açılır, düşür çaxnaşıq.
Ağlaşan qadınlar qorxub dinmirdi,
Qızarmış tüfənglər susmaq bilmirdi!
Komandir de bayaq atılır damdan,
Özünü yetirir Əliyar həmən.

- Bacılar əfv edin, yubandıq yaman,
Ağır yaralımız vermədi aman.
Tez olun çıxağın qonşu kəndəcən,
Ötürək biz sizi, dan sökülüncən.

Əlyar yığışdırır silahı yerdən,
Eşidir inilti gəlir birindən.
Atəşlə o kəsir düşmənin əhdin…
Daha üç nəfərin tam əminlikçün.
Qadınlar öpürlər iki əsgəri,
«Sağ olun dedilər, dünya qədəri!»
Düşərək komandir qabağa indi
Dalınca hamısı vadiyə endi.

Gecədir, hər yeri, tutmuşdur duman,
Tələsir çöl ilə yorğun bir yolçu.
Çıxarıb kompası, baxır nagüman,
Nə kəndçi rast gəlir, nə bir qarolçu,
Gedirdi hayana bilmirdi yolçu…
Uzaqda görünən hər bir qaraltı.
Yaxına gəldikcə, dönürdü kola.
Çatanda Urşana kiçik şırıltı
Boylanır indicə keçdiyi yola,
Özü də bilmədən, çıxmış daş yola.
Yol hara uzanır, bir Allah bilir,
Arxadan eşidir nərilti səsin.
Getdikcə nərilti daha güclənir,
«Gələn yük maşını», ayırır səsin.
Maşın yaxınlaşır, işığı gəlmir.
Tapança çıxarıb çəkir ayağa,
Göründü faralar, dörd-beş metrədən,
Onu düşündürür, «maşında kim var?»
İstədi oxusun, bilsin «nömrədən».
«Maşın haranındır?, Kimdir adamlar?»
Keçir danqa-drunqla banda odunlar.

Nə duman dağılır, nə işıq gəlir,
Bu odun maşını verir təsəlli.
Arabir səsini külək gətirir.
«Gərək ki, qabaqda olsun Qəribli»,
Bu odun maşını verdi təsəlli…

Ağlaşma, qışqırıq səsləri gəldi
Əvvəlcə bilmədi, hardan qaça-qaç?
Dumanın seyrəlmiş yerində indi.
Arvad-uşaq, qoca, qaçır yalınqaç.
Büdrəyən, yıxılan, alırdı güllə,
Atanlar şənlənir, yıxılan susur.
(Bax, burda görmürəm lüzum təhlilə).
«Tarix təkrarlanır! Həqiqət budur!»
Vuranlar şənlənir, yıxılan susur.
Qovurdu onları altı silahlı,
Urşan çantasıyla tez-tov əlləşir.
Qapır «avtomatı», artıq «daraqlı»
Basdıqca tətiyi, o vəhşiləşir.
Gəlir yad bir dildə, qışqırıq-həşir!
Sapdırır dalınca düşmən qalığın.

Qaçırdı Urşan da, qarabaqara.
Hayıfın aldı o, vurulanların.
İncidir ayaqdan aldığı yara,
Axsayıb – qaçırdı qarabaqara.
Özü də bilmədən çatmış qayaya.
Yaralı düşmənlər qaldı geridə.
Hündürdən yıxılır gur axan çaya.
Aparır çay onu çanta belində,
Yaralı düşmənlər azır geridə.
Dalıycan bir kişi gah batır, çıxır:
- Ey əsgər, kömək et! Özünü çatdır!..

«N» hərbi hissəsi, transporant əsir,
İkicə yaşın var, «On səkkiz oktyabr!»
Hər yanda üçrəngli bayraq yellənir,
Alayın orkestri hərbi marş çalır.
«N» hərbi hissəsi, düzülmüş alay,
Bütün şəxsi heyət fərəqət durur.
Qərargah rəisi, mayor Babatay,
Nizamlı addımla keçir və budur:
Məğrur komandirə məruzə oxur!..

- Polkovnik-leytenant, alay heyəti,
Kəşfiyyatçı tağım fəxri təltifçün
Əmrnizlə düzülüb! Mayor İsməti!
- Salam! Azərbaycan əsgərlərinə!
- Salam! – Alay xorla komandirinə.
Kapitan tağımdan komandasıyla
Çağırıb dörd nəfər qəhrəmanları.
Urşansa dalmışdı qəmli xəyala.
Gəlirdi gözünə tutuşduqları,
Atası Vəkilin danışıqları.
Nəfəs alətləri, orkestri çalır,
Kapitan dəstəylə, mərkəzə çatır.
Dayanıb əlini, qoyur alnına.
Polkun komandiri məruzə alır.

Kənanla durmuşdur Urşan yan-yana.
Gözündən bir damcı üzünə axır,
Komandir hələ də məruzə alır.

- Kəşfiyyat tağımın bu dörd əsgəri…
Onlardan Seyidov hospitaldadır.
Təkcə yaralıdır, bir ağ ciyəri,
Vəziyyəti hələ orta-ağırdır…
Bölük komandiri, kapitan Fəxri!..

Urşan eşidəndə, bu xoş xəbəri,
Silib göz yaşını, baxdı Kənana.
O da başa düşüb, sual nəzəri:

- Parad keçən kimi, sürpriz var sənə.
- Sağdır! Yalan deməz, kapitan ona.
Sən bizə demişdin, axı, başqa söz?..
- Abdullayev, hələ bu, «məxfidir» döz.
- Dayanın kapitan… Alay fərəqət!..
- Canlar fəda olub bu günçün fəqət!
Yadelli düşmənin bağrı çatlayır.
Çoxunun payına, düşüb məşəqqət.
Qaçqınlar, köçkünlər evsiz-eşiksiz,
Körpələr beşiksiz, necə köməksiz...
Bu gün ön cəbhədə xidmətdəsiniz
Şərəfli yolunuz Vətən borcudur,
Sabah tərxis olub belə getdiniz.
Müstəqil ölkənin əsgərlərisiz!

- Əsrlərlə xalqımız gəlmiş bu günə,
Alqışlar deyək biz belə vətənə!
Davadan çıxacaq firəvan günə!
On səkkiz Oktyabrın şanlı gününə!
Baxın, qarşınıza, burdadır onlar!
Vətənin yolunda alov udanlar!

İgidlər amalı olmuş «kəşfiyyat»
«Kəşfiyyat» onlara vermiş təyinat.
Bu əməliyyatdan xəbər göndərdik,
Cavabı oradan çox gözləmədik.
Çatan tək ünvana bir «əsər» olmuş
«Əsər» oxuyanlar çox məmnun olmuş
Ali-Baş komandan – o Ulu öndər –
Bəlağət elmində mahirdən mahir,
Naziri çağırıb göstəriş verir.
Keçsə neçə əsr, keçsə eralar,
Onun ritorluğu yaddaşda qalar.
Yadelli liderlər, yad-əcnəbilər,
Antik Siseronu kumir bilənlər
Heydərin elminə qibtə edərlər.
Böyük siyasətdə, ulu qəhrəman
Yurda nur saçacaq hey zaman-zaman.

Ali Baş komandan öz Fərmanıyla,
Neçə kəşfiyyatçı-əsgər, giziri
Örnəktək tanıdır yurda – hamıya.
Vətən qeyrətlilər, dillər əzbəri!..
Sıravi Əliyar Zakir oğlu Mirzəbəyev.
Sıravi Vəkil Ruzigar oğlu Seyidov.
Sıravi Urşan Havadar oğlu Abdullayev.
Çavuş Ədalət Rəfi oğlu Səməndərli.

Gizir Kənan Yusif oğlu Əlizadə.
Ali Baş Komandan! Oktyabrın biri,
Doxsan üçüncü il, Bakı şəhəri.
Alaya: - Fərəqət!.. Hərbi addımla!..
Birinci batalyon gedir irəli!
Alqışlar, alqışlar qəhrəmanlara!
İndisə sol çiyin, irəli, başla!..

Alayın paradı başlayır burda,
Dörd əsgər yanaşı, hərbi salamda.
Addımlardan gələn zəhmli səslər,
Sabaha, ümidə, zəfərə səslər.
Bürüyür qəlbimi Vətən qüruru,
Vətən keşikçisin, Tanrım, sən qoru!

Bakı, dekabr 2008-ci il

YUSİF ƏLİZADƏ

BEŞ KƏŞFİYYATÇI ƏSGƏR

(Poema)

Müəlif hüquqları Beynəlxalq Hüquqi Normalarla qorunur

«Elm və təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Kompüter dizayneri: Zahid Məmmədov
Texniki redaktor: **Yadigar Bağırova**

Çapa imzalanmış 15**.10.2014.**
Şərti çap vərəqi **4,5.** Sifariş **№ 391**
Kağız formatı **70x100 1/32.** Tiraj **500**

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32 511-37-82; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.